**48. Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.19 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**49. Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişdir:** Oqtay Əsədov

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 13.20 dəq.) |
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

**50. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişdir:** Oqtay Əsədov

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 13.20 dəq.) |
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

**51. Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 13.22 dəq.) |
| Lehinə | 107 |

| | |
|---|---|
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |

Nəticə: Qəbul edildi

**52. Dünya azərbaycanlılarının həmrəyliyi günü münasibəti ilə Azərbaycan Respublikası Milli Məclisinin Müraciətinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisi qərarının layihəsi barədə.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Bahar Muradova

**Təklif:** Qərar qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.28 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 112 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin Sədri** **O.ƏSƏDOV**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*28 dekabr 2018-ci il. Saat 12.*

*Azərbaycan Respublikası Milli Məclisinin Sədri*
***Oqtay Əsədov** sədrlik edir*

**Sədrlik edən.** Xoş gördük, hörmətli millət vəkilləri. Xahiş edirəm, yerlərinizi tutasınız. Qeydiyyatdan keçin, xahiş edirəm.

| **Qeydiyyat** | (saat 12.01 dəq.) |
|---|---|
| İştirak edir | 98 |
| Yetərsay | 83 |

Çox sağ olun. Yetərsay var. Xahiş edirəm, gündəliyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.02 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Gündəlik qəbul edildi. Sağ olun.

Hörmətli millət vəkilləri, gündəlikdə məsələlər çoxdur. Amma bu çoxluq sizləri qorxutmasın. Bu məsələlərin 17-si Ələt iqtisadi zonası haqqında qəbul edilmiş Qanunla əlaqədar qanunlarda dəyişikliklərdir. Biz "Doing Business 2019" hesabatında 27-ci yerdəyik. 17–20-ci məsələlər bu yerdə mövqelərimizi bərkitmək üçün qanunlarda edilən dəyişikliklərdir. Ona görə, xahiş edirəm, bir az dəqiq olaq. Gündəliyin 1-ci məsələsi Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi hakimlərinin vəzifədən azad edilməsi haqqındadır. Sizdə siyahılar var. Başqa bir təklif yoxdur?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.03 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 2-ci məsələsi Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərlərinin seçilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarında dəyişiklik edilməsi barədədir. Başqa bir təklif yoxdur ki?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.04 dəq.) |
|---|---|
| Lehinə | 106 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Hörmətli millət vəkilləri, 3-cü–19-cu məsələlər Ələt iqtisadi zonası haqqında qəbul edilmiş Qanunla əlaqədar qanunlarda dəyişikliklərdir. Mən təklif edirəm ki, Valeh müəllim bu 17 qanun barəsində bir-bir məlumat versin, sonra ayrı-ayrılıqda səsə qoyarıq. Etiraz yoxdur ki?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Valeh müəllim, buyurun.

**V.Ələsgərov,** *Milli Məclis Sədrinin müavini, Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri.*

Təşəkkür edirəm, Oqtay müəllim. Milli Məclisin hörmətli deputatları, bu il dekabrın 7-də olan plenar iclasımızda biz Ələt azad iqtisadi zonası ilə əlaqədar “Normativ hüquqi aktlar haqqında” Konstitusiya Qanunumuza dəyişikliyi qəbul etdik və bu dəyişiklik dekabrın 20-də qüvvəyə mindi. Bu dəyişikliyə əsasən Ələt azad iqtisadi zonasının ərazisində “Ələt azad iqtisadi zonası haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hallarda bu Konstitusiya Qanunundan fərqli hüquqi tənzimləmə tətbiq edilir və həmin zonanın fəaliyyəti ilə bağlı qəbul edilmiş haqlar azad zona daxilində məcburi hüquqi qüvvəyə malikdir.

Bu, daxili qaydalara aid olan bir tələb idi, onların qüvvəyə minməsini, hüquqi qüvvəsini təsdiq edən əlavə və dəyişiklik idi və gələcəkdə Ələt azad iqtisadi zonasında məcburi hüquqi qüvvəyə malik olan daxili qaydalar ilə

əsas iqtisadi qanunvericilik arasında ziddiyyət yaranmasın deyə sizə təqdim olunmuş qanunlarda əlavə və dəyişikliklər təsdiq edilmişdir. Bu dəyişiklikləri bir misalda göstərim. "Atmosfer havasının mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsində təklif edilir ki, Ələt azad iqtisadi zonasında atmosfer havasının mühafizəsi ilə bağlı məsələlər Ələt azad iqtisadi zonası haqqında Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir. Demək olar ki, Sizə təqdim olunmuş bu 17 qanun layihəsində eyni cümlələr təkrar olunur. Məqsəd də ondan ibarətdir ki, bu məsələlərə aid tənzimləmə, Ələt azad iqtisadi zonasının daxilində fəaliyyət göstərən səlahiyyətli qurum tərəfindən qəbul edilmiş daxili qaydalar müvafiq qüvvəyə malik ola bilsin və o qanunvericiliklə əsas iqtisadiyyat qanunvericiliyi arasında ziddiyyət yaranmasın.

Sizə bir misal gətirim. Bu gün ekologiya, əmək və işçilərin təhlükəsizliyi və sağlamlıq məsələlərini əhatə edən 70-dən artıq daxili qayda hazırlanır. Ancaq 3 məsələyə aid nəyi demək istəyirəm: daxili qaydalar, qanunda yazıldığı kimi, ən qabaqcıl beynəlxalq standartlara və beynəlxalq standartlarda öz əksini tapmış tələblərə uyğun olaraq hazırlanacaqdır və əmin ola bilərsiniz, bunlar hazır olanda görəcəksiniz ki, daxili qaydalar ən yüksək səviyyədə tərtib olunubdur. Ona görə də 3-cü məsələmizə – "Atmosfer havasının mühafizəsi haqqında", "Ekoloji təhlükəsizlik haqqında", "Ətraf mühitin mühafizəsi haqqında", "İstehsalat və məişət tullantıları haqqında", "Yerin təki haqqında" Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının Su Məcəlləsində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsinə, eləcə də 4-cü məsələyə – "Əqli mülkiyyət hüquq-

larının təminatı və piratçılığa qarşı mübarizə”, “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” və sair qanunlarda əlavə və dəyişikliklərə səs verməyinizi xahiş edirəm.

5-ci məsələ “Məhkəmələr və hakimlər haqqında” və digər qanunlarda dəyişikliklərdir. Yadınızdadırsa, “Ələt azad iqtisadi zonası haqqında” Qanunda bu məsələ öz əksini tapıbdır. Əgər tərəflər başqa cür razılaşmayıbsa, mübahisələr Ələt azad iqtisadi zonasının daxilində fəaliyyət göstərən məhkəmə və arbitrlər tərəfindən həll olunacaqdır.

“Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında”, “Notariat haqqında” qanunlarda dəyişiklik təklif edirik.

6-cı məsələ İnzibati Xətalar Məcəlləsində, İnzibati Prosessual Məcəllədə, Miqrasiya Məcəlləsində, Mülki Məcəllədə, Mülki Prosessual Məcəllədə, Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədədir. Qeyd eləyim ki, Şəhərsalma və Tikinti Məcəlləsinə aid olan daxili qaydalarda 57 daxili qayda hazırlanır. Bir məcəlləni 57 daxili qayda ilə əhatə edəcəyik. Əgər razısınızsa, bu 17 məsələni səsə qoyaq. Eyni cümlədir, eyni məsələdir. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Xahiş edirəm, gündəliyin 3-cü məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.10 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.
Gündəliyin 4-cü məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.10 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.
Gündəliyin 5-ci məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.11 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.
Gündəliyin 6-cı məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.12 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.
Gündəliyin 7-ci məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.12 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.
Gündəliyin 8-ci məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.13 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.
Gündəliyin 9-cu məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.13 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.
Gündəliyin 10-cu məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.14 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.
Gündəliyin 11-ci məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.14 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.
Gündəliyin 12-ci məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.15 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.
Gündəliyin 13-cü məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.15 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.
Gündəliyin 14-cü məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.16 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.
Gündəliyin 15-ci məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.17 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.
Gündəliyin 16-cı məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.17 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 3 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.
Gündəliyin 17-ci məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.18 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.
Gündəliyin 18-ci məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.18 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.

Bu qəbildən sonuncu – 19-cu məsələyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.19 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.

Nəhayət, uzun müddət müzakirə elədiyimiz Ələt azad iqtisadi zonası haqqında qanun layihəsi və onun ətrafında 75 qanunda dəyişiklik edilməsi məsələsi sona çatdı. Ola bilər ki, gələn illərdə bir-iki məsələdə dəyişiklik olsun. Ümumiyyətlə, qanun layihəsini başa çatdırdıq və bu münasibətlə də sizin hamınızı təbrik edirəm. Çox sağ olun.

20-ci məsələ Kənd təsərrüfatı kooperasiyası haqqında qanun layihəsidir. Buyursun Eldar İbrahimov.

**E.İbrahimov,** *Milli Məclisin Aqrar siyasət komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli cənab Sədr, hörmətli deputat həmkarlarım, bu Qanun bizim komitədə müzakirə olunub və komitəmizin deputatları bunu yekdilliklə müdafiə edirlər. Elə bilirəm ki, hörmətli həmkarlarım bu Qanuna səs verə bilərlər. Qanunun mahiyyətini hamı bilir, hər kəsə paylanıb. Ona görə də bu barədə geniş danışmağa ehtiyac yoxdur. Sağ olun.

**Sədrlik edən.** Xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.20 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 3 |
| İştirak edir | 110 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.

21-ci məsələ Azərbaycan Respublikasının 2016-cı il 18 mart tarixli Qanunu ilə təsdiq edilmiş 1 nömrəli əlavə – Güclü təsir edən maddələr və onların külli miqdarının, habelə zəhərli maddələrin Siyahısında dəyişiklik edilməsi barədə qanun layihəsidir. Buyursun Əli Hüseynli.

**Ə.Hüseynli,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun, cənab Sədr. Qeyd etdiyiniz siyahıya layihədə yeni qəbildən olan maddənin – "tramadol hidroxlorid"in əlavə edilməsi təklif olunur. Səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Başqa təklif yoxdursa, xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.21 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Növbəti 22-ci məsələ "Azərbaycan Respublikasının

Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Qanunda dəyişiklik edilməsi barədədir. Əli müəllim, buyurun.

**Ə.Hüseynli**. Hörmətli həmkarlar, bu layihənin məqsədi Şəhərsalma və Tikinti Məcəlləsinin 2.2-ci maddəsinin, yəni bütün şəhər və qəsəbə yaşayış məntəqələrinin müfəssəl planının hazırlanmasına həsr olunmuş maddənin tətbiqi müddətinin daha bir il uzadılması zərurəti ilə bağlıdır və ümidvarıq ki, bir il ərzində bu işlər tamamlanacaq. Səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.23 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.

23-cü məsələ "Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri haqqında" Qanunda dəyişikliklər edilməsi barədədir. Əli müəllim, buyurun.

**Ə.Hüseynli**. Çox sağ olun. Hörmətli həmkarlar, bu qanun layihəsinin məqsədi Azərbaycanda qaçqın statusu almış əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin də haqqında məlumatların əhalinin dövlət reyestrinə daxil edilməsidir. Səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.24 dəq.) |
|---|---|
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.

24-cü məsələ "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Qanunda dəyişiklik edilməsi barədədir. Əli müəllim, buyurun.

**Ə.Hüseynli.** Çox sağ olun. Bu layihədə əqli mülkiyyət hüquqlarının təminatı müvafiq icra hakimiyyəti orqanının yaratdığı orqan tərəfindən həyata keçirilir. Bu məsələ, bilirsiniz ki, Prezidentin fərmanı ilə tənzimlənir. Həmin bu ifadənin daxil edilməsi təklif olunur. Səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.25 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Növbəti 25-ci məsələ "Hesablama Palatası haqqında" Qanunda dəyişiklik edilməsi barədədir. Buyursun Ziyad Səmədzadə.

**Z.Səmədzadə,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri, qanun layihəsi "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Qanunun icrası məqsədi ilə hazırlanmışdır. Adı çəkilən qanuna əsasən xərclərin orta və uzun müddətli idarə edilməsi üzrə yeni büdcə qaydasının tətbiqi nəzərdə tutulmuşdur. Bu zaman büdcə qaydasına uyğun olaraq, ilk növbədə icmal büdcənin xərclərinin yuxarı həddi müəyyən olunur. Ona görə millət vəkillərindən xahiş edirəm, səs versinlər.

**Sədrlik edən.** Başqa təklif yoxdursa, xahiş edirəm, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.26 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Deyəsən, iclas başlamamış yorulmuşuq. Bir az sakitlik eləyək.

Çox sağ olun, qəbul edildi.

26-cı və 27-ci məsələlər bir zərfdə daxil olub. "İstehsalat və məişət tullantıları haqqında" Qanunda dəyişiklik edilməsi barədə buyursun Valeh Ələsgərov.

**V.Ələsgərov**. Təşəkkür edirəm, cənab Sədr. Sizə təqdim olunmuş "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edil-

məsi barədə Azərbaycan Respublikası Qanununa bir əlavə edilir. Əlavə də nədən ibarətdir:

"Əlvan və qara metal tullantılarının qəbulu fəaliyyətini yalnız qara və əlvan metalların əridilməsi və bunun nəticəsində ərintilərin alınması obyektləri "Texniki təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən dövlət reyestrində təhlükə potensiallı obyektlər olaraq qeydiyyatdan keçmiş sahibkarlıq subyektləri həyata keçirə bilir".

Davamını oxumayım. Mətn sizdə var. Məqsəd ondan ibarətdir ki, əlvan və qara metal tullantılarının qəbulunu ixtisaslaşdırılmış və müəyyən avadanlıqlarla, cihazlarla, belə deyək, cihazları, avadanlıqları olan və müəyyən tədqiqatları apara bilən qurumlar həyata keçirsinlər. Misal üçün, tullantılarda partlayıcı, radioaktiv maddələr ola bilər. Bunların qarşısını almaq üçün bu dəyişiklik təklif edilib və əminəm ki, bu əlavə və dəyişiklik təhlükəsizlik məsələlərinin yüksək səviyyədə təmin olunmasına xidmət edəcək. Səs verməyinizi xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Əli müəllim, 27-ci məsələyə aydınlıq gətirin. Birlikdə səsə qoyarıq.

**Ə.Hüseynli**. Oqtay müəllim, 27-ci məsələ təhlükəsizlik sahəsində qanunvericiliyin pozulmasına görə cərimə formasında inzibati məsuliyyəti nəzərdə tutur. Hesab edirəm ki, cərimələr adekvatdır. Səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Gündəliyin 26-cı məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.29 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 1 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.
Gündəliyin 27-ci məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.29 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 28-ci və 29-cu məsələləri də bir zərfdə daxil olub. 28-ci məsələ Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında, 29-cu məsələ "Daşınar əmlakın yüklülüyü haqqında" Qanunda dəyişiklik edilməsi barədədir, qanuna əlavədir. Ziyad Səmədzadə buyursun.

**Z.Səmədzadə**. Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri, bu qanun layihəsi "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikası Qanununun müddəalarının nəzərə alınması məqsədi ilə hazırlanmışdır. Dəyişikliklər, eyni zamanda, girov qoyulmuş əşyanın satışından götürülmüş məbləğin bölüşdürülməsi qaydasını təkmilləşdirir. Daşınar əmlakın girovu mexanizminin müəyyən edilməsi girov predmetinin genişlənməsinə, daşınar əmlakın daşınmaz əmlakla eyni səviyyədə girov predmeti kimi qəbul olunmasına və son nəticədə vətəndaşların kreditlərə çıxış imkanlarının artmasına xidmət edəcəkdir.

Ona görə də bu qanun layihələrinə səs verməyinizi xahiş edərdim.

**Sədrlik edən.** Başqa təklif yoxdursa, xahiş edirəm, gündəliyin 28-ci məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.31 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.

Gündəliyin 29-cu məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.32 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 30, 31, 32-ci məsələləri bir zərfdə daxil olub. 30-cu məsələ "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Qanunda dəyişiklik edilməsi barədədir. Ziyad müəllim, buyurun.

**Z.Səmədzadə**. Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri, bilirsiniz ki, biz "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Qanunu qəbul etmişdik. Qanunun 2.1-ci maddəsində göstərilən yoxla-

malar istisna olmaqla, Azərbaycan Respublikası ərazisində sahibkarlıq sahəsində aparılan yoxlamalar 2021-ci il yanvarın 1-dək dayandırılmışdır. Təklif olunan dəyişikliyə əsasən həmin istisnaya gömrük auditi də əlavə olunur. Bununla da səlahiyyətli qurumlar xarici ticarət dövriyyəsində şəffaflığın, dövlət büdcəsinə ödənilməli vergilərin və gömrük rüsumlarının tam təmin edilməsi məqsədi ilə gömrük auditini maneəsiz həyata keçirə biləcəklər. Millət vəkillərindən bu qanun layihəsinə səs vermələrini xahiş edərdim.

Digər dəyişiklik Gömrük Məcəlləsində nəzərdə tutulur. Bu dəyişikliyə görə, ixrac-idxal əməliyyatlarında qanunvericiliyə riayət edən xarici ticarət iştirakçıları üçün daha əlverişli şərait yaradılması, gömrük sərhədindən mal dövriyyəsinin sürətləndirilməsi yolu ilə ölkənin ixrac potensialının gücləndirilməsi, Ümumdünya Gömrük Təşkilatının tövsiyələrinə və qabaqcıl beynəlxalq təcrübəyə uyğun olaraq, xarici ticarət iştirakçılarında könüllü riayət mədəniyyətinin formalaşdırılması, risk qiymətləndirilməsi əsasında gömrük nəzarəti formalarının tətbiqi, malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirməsinin və gömrük nəzarətinin daha çevik və şəffaf həyata keçirilməsi, idxal-ixrac əməliyyatlarında sahibkarlıq münasibətlərini müasir idarəçilik prinsipləri əsasında qurmaqla beynəlxalq ticarətin asanlaşdırılması məqsədini daşıyır. Qanun layihəsi malların gömrük ərazisinə gətirilməzdən əvvəl gömrük orqanlarına elektron formada qısa idxal bəyannaməsi verilməsini nəzərdə tutur. Bəyannamənin verilməməsinə görə inzibati nəzarət nəzərdə tutulsa da, gömrük rəsmiləşdirilməsinin və malların buraxılışının həyata keçirilməsinə mane olmur. Ona görə də millət vəkillərindən bu dəyişikliklərə səs vermələrini xahiş edirəm.

**Sədrlik edən.** Başqa təklif yoxdursa, xahiş edirəm, 30-cu məsələyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.35 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.
Xahiş edirəm, 31-ci məsələyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.35 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.
Əli müəllim, bu qanun layihəsinə uyğun olaraq 32-ci məsələ İnzibati Xətalar Məcəlləsində dəyişikliklə bağlıdır. Buyurun.
**Ə.Hüseynli.** Çox sağ olun. Ziyad müəllimin məruzə elədiyi məsələlərin davamı olaraq qısa idxal bəyannaməsinin verilməməsi məsələsi də inzibati məsuliyyətə səbəb olacaqdır. Səs verməyinizi xahiş edirəm.
**Sədrlik edən.** Xahiş edirəm, 32-ci məsələyə münasibət bildirək.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.36 dəq.) |
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

33-cü məsələ "Dövlət satınalmaları haqqında" Qanunda dəyişiklik edilməsi barədədir. Buyursun Ziyad Səmədzadə.

**Z.Səmədzadə**. Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri, qanun layihəsi satınalmalar sahəsində şəffaflığın təmin edilməsi, müasir informasiya texnologiyalarından istifadə edilməsi məqsədi ilə hazırlanmışdır və aşağıdakıları nəzərdə tutur:

1) bir sıra anlayışların – "satınalma", "satınalan təşkilat", "tender" anlayışlarının təkmilləşdirilməsi və yeni anlayışların qanuna daxil edilməsi. Buraya "dövlət satınalmalarının vahid internet portalı", "elektron satınalma", "satınalma planı" və "təkliflərin cəlb edilməsi" anlayışları daxildir. Satınalmaların vahid internet portalının yaradılması və satınalmaların elektron həyata keçirilməsi subyektiv amillərin aradan qaldırılmasına, insanların sərbəst və vaxt itkisinə məruz qalmadan tenderdə iştirakına şərait yaradacaqdır;

2) dövlət satınalmalarının planlaşdırılması. Satınalan təşkilat cari ilin oktyabr ayının 15-dən gec olmayaraq növbəti il üçün ilkin satınalma planını hazırlayaraq təsdiq edir və dövlət satınalmalarının vahid internet portalında yerləşdirir.

3) satınalan təşkilatın satınalma prosedurları barədə

malgöndərənləri daha ətraflı məlumatlandırmaq öhdəliyinin müəyyən edilməsi maraqlarının daha səmərəli nəzərə alınmasına imkan yaradacaqdır.

Qanun layihəsində edilən dəyişiklik, eyni zamanda, kiçik və orta sahibkarlıq subyektlərinin dövlət satınalmalarında iştirakının tənzimlənməsini də nəzərdə tutur. Belə ki, satınalma predmetinin ehtimal olunan qiyməti 3 milyon ABŞ dollarının manat ekvivalentində və ya ondan aşağı olan malların satın alınması yalnız kiçik və orta sahibkarlıq subyektlərinin iştirakı ilə açıq tender üsulunu tətbiq etməklə elektron satınalma vasitəsi ilə həyata keçirilir.

Bütövlükdə qanun layihəsində edilən dəyişikliklər dövlət satınalmaları prosesinin daha da təkmilləşməsinə xidmət edəcəkdir. Ona görə millət vəkillərindən bu dəyişikliklərə də səs vermələrini xahiş edərdim.

**Sədrlik edən.** Xahiş edirəm, gündəliyin 33-cü məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.39 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

34-cü məsələ "Dövlət rüsumu haqqında" Qanunda dəyişiklik edilməsi barədədir. Ziyad müəllim, buyurun.

**Z.Səmədzadə**. Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri, qanun layihəsi mobil cihazların qeydiyyatına görə ödənilən dövlət rüsumunun 30 faizinin mobil cihazların qeydiyyatı sisteminin saxlanmasına, işçilərin sosial

müdafiəsinin və maddi təminatının yaxşılaşdırılmasına yönəldilməsini nəzərdə tutur. Məlumat üçün bildiririk ki, "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə 2018-ci il 12 iyul tarixli Qanuna əsasən fiziki şəxs tərəfindən şəxsi istehlak üçün ölkəyə gətirilən mobil cihazların qeydiyyata alınmasına görə dövlət rüsumu müəyyən edilmişdir və bu rüsumların məbləği mobil cihazların dəyərinə uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilir. Millət vəkillərindən bu məsələyə də səs vermələrini xahiş edərdim.

**Sədrlik edən.** Xahiş edirəm, gündəliyin 34-cü məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.41 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 2 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Hörmətli millət vəkilləri, bilirsiniz ki, Azərbaycanın "Doing Business"də mövqeləri çox möhkəmlənmişdir. 45-ci yerdən 27-ci yerə qədər irəliləmişik və qəbul edəcəyimiz qanunlarda dəyişikliklər bizim bu mövqelərimizi daha da möhkəmləndirmək üçün lazım olan qanun layihələridir.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Onu birlikdə səsə qoymaq olmaz, gündəliyin 35-ci məsələsindən təxminən 51-ci məsələsinə

kimi bir-bir izah etsinlər. 35-ci məsələ “Yol hərəkəti haqqında” Qanunda dəyişiklik edilməsi barədədir. Buyursun Əli Hüseynli.

**Ə.Hüseynli.** Çox sağ olun. Cənab Sədr, təklif olunan dəyişiklik “Yol hərəkəti haqqında” Qanundadır və inzibati protokolun tərtib olunmasının, vətəndaşa çatdırılmasının müasir, rahat üsullarından biridir. Təklif olunur ki, inzibati tənbeh vermək haqqında qərar tərtib edilir və onun surəti nəqliyyat vasitəsinin ön şüşəsinə qoyulur. Bu, sadəcə, vətəndaşa çatdırılma üsullarından biridir. Hesab edirəm, mütərəqqidir və səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.43 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.

36-cı məsələ Mülki Prosessual Məcəllədə dəyişiklik edilməsi haqqındadır. Buyursun Əli Hüseynli.

**Ə.Hüseynli.** Oqtay müəllim, Sizin dediyiniz kimi, bu layihə də əhəmiyyətlidir və “Doing Business” hesabatındakı tövsiyələrdən irəli gəlir. Böyük bir layihədir və məhkəmə-hüquq islahatları üçün əhəmiyyət kəsb edir. Qısa tezislərlə diqqətinizə çatdıracağam. Birinci, layihədə mülki və iqtisadi mübahisələr üzrə məhkəmə icraatının da elektron qaydada aparılması təklif olunur. Qeyd etməliyəm ki, indiyə qədər ancaq inzibati işlər elektron qaydada aparılırdı.

İkinci, layihədə bəzi mülki işlərin və iqtisadi mübahisələrin daha sadələşdirilmiş icraatda aparılması təklif olunur. Belə ki, mülki işlər üzrə məbləği 2000 manatdan, iqtisadi işlər üzrə isə 10000 manatdan az olan iddialar üzrə sadələşmiş icraat təklif olunur. Bu da, təbii ki, vaxt itkisinin qarşısını alır.

Üçüncü, layihədə hazırlıq iclasının aparılması ilə bağlı müddət 30 gündən 15 günədək endirilir. Ümumiyyətlə, qeyd etmək istəyirəm ki, işlərə baxılma müddətləri layihədə iki dəfə endirilib.

Dördüncü, bilirsiniz ki, işlərin məhkəmədə təxirə salınmasının maksimal həddi müəyyən olunmamışdı və bu, bir sıra hallarda sui-istifadələrə gətirib çıxarırdı. Təklif olunur ki, işə baxılma 5 dəfədən çox təxirə salına bilməz və bu, təbii ki, qanunvericilikdə təklif olunmuş müddət çərçivəsində, yəni işə baxılmasının ümumi 3 ay müddəti çərçivəsində həyata keçirilə bilər. Qeyd etmək istəyirəm, komitə üzvlərimizin bir təklifi də olmuşdu ki, bu, 5 dəfə yox, 3 dəfə olsun. Bu məsələni də qanunvericilik təşəbbüsü subyekti ilə müzakirə edirik.

Nəhayət, beşinci, məhkəmə iclaslarında audio-video yazıların həyata keçirilməsi ilə bağlı səmərələşdirici təkliflər irəli sürülür. Eyni zamanda, Mülki Prosessual Məcəllədə məlumat verdiyim bu dəyişikliklərlə bağlı, təbii ki, "Məhkəmələr və hakimlər haqqında" Qanunda da elektron məhkəmə ilə bağlı müddəalar öz əksini tapır. Son olaraq məlumat vermək istəyirəm ki, bu qanun qüvvəyə mindikdən sonra respublika ərazisinin təxminən 60 faiz hissəsində elektron məhkəmənin tətbiqi prosesi artıq başlayacaq və sonra bu, 100 faizə çatdırılacaqdır. Təşəkkür edirəm, səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Xahiş edirəm, gündəliyin 36-cı məsələ-

sinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.46 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

37-ci məsələ "Məhkəmələr və hakimlər haqqında" Qanunda dəyişiklik edilməsi barədədir. Əli müəllim, buyurun.

**Ə.Hüseynli.** Oqtay müəllim, o barədə məlumat verdim. Mülki Prosessual Məcəllədə qəbul olunan "elektron məhkəmə" ifadələri "Məhkəmələr və hakimlər haqqında" Qanunda öz əksini tapır.

**Sədrlik edən.** Oldu. Xahiş edirəm, 37-ci məsələyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.47 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.

Gündəliyin 38-ci məsələsi Mülki Məcəllədə dəyişiklik edilməsi barədədir. Ziyad Səmədzadə buyursun.

**Z.Səmədzadə.** Cənab Sədr, hörmətli millət vəkilləri, 38-ci və 39-cu məsələlərdə nəzərdə tutulan qanun layihələri bir məktubda gəlib. Qanun layihələrində “İpoteka haqqında” Qanunda bir sıra dəyişikliklər edilməsi nəzərdə tutulur. Azərbaycan Respublikasının Mülki Məcəlləsinə təklif olunan dəyişikliklər “İpoteka haqqında” Azərbaycan Respublikasının Qanununda təklif olunan dəyişikliklərlə bağlıdır. Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsində aşağıdakılar nəzərdə tutulur:

1) torpaq sahəsi və torpaqla möhkəm bağlı olan əşyalara vahid daşınmaz əşya və vahid mülkiyyət obyekti kimi baxılması. Bu isə torpaq və onun üzərində olan tikililərlə bağlı praktikada rast gəlinən bir sıra problemlərin həllinə xidmət edəcəkdir;

2) ipoteka müqaviləsinə dair tələblərin sistemləşdirilməsi və dəqiqləşdirilməsi, ipoteka saxlayanın tələbinin ipoteka predmeti hesabına yönəldilməsi barədə şərtlər; ipoteka predmetinin satış üsulu, ipoteka predmetinin ilkin satış qiyməti və ya bu qiyməti müəyyən edəcək müstəqil qiymətləndiricilər, ipoteka predmeti açıq bazarda satılarkən satışı həyata keçirməli şəxs və ipoteka predmetinin satılmasından əldə olunacaq gəlirlərin bölüşdürülməsi qaydası və növbəliliyi;

3) ipoteka predmetinin satışı qaydasının təkmilləşdirilməsi.

Hörmətli millət vəkilləri, “İpoteka haqqında” Qanunda isə aşağıdakı dəyişikliklərin edilməsi nəzərdə tutulur. Sizə paylanılan layihədə “İpoteka predmetinin satış üsulları” adlanan 41-ci maddə yeni redaksiyada verilmişdir. Həmin maddəyə, yəni ipoteka müqaviləsinə əsasən tutma yönəldilən ipoteka predmeti açıq bazarda və ya hərracda, o

cümlədən elektron qaydada keçirilən hərracda satıla bilər. Bunun üçün icra məmuru ipoteka saxlayanın və ipoteka qoyanın qarşılıqlı razılığına əsasən seçilmiş ixtisaslaşdırılmış təşkilata hərracın keçirilməsi barədə sifariş verir. Təklif olunur ki, hərrac təşkilatçısı təsadüfi bir qurum olmasın. Onun bu sahədə ən azı 5 illik daimi fəaliyyəti olsun. Hesab edirik ki, bu tələb hərracın daha peşəkar keçirilməsinə xidmət edəcəkdir. Bu məqsədlə layihədə "ixtisaslaşdırılmış təşkilat" sözlərindən əvvəl "5 ildən az olmayan daimi fəaliyyət göstərən" sözləri əlavə edilir. Hər iki qanun layihəsinə edilən dəyişikliklər bu gün son dərəcə aktual olan ipoteka sisteminin daha da təkmilləşdirilməsinə xidmət edəcəkdir. Ona görə də millət vəkillərindən bu dəyişikliklərə səs vermələrini xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun. Əgər başqa təklif yoxdursa, gündəliyin 38-ci məsələsinə, xahiş edirəm, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.50 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.

39-cu məsələyə, xahiş edirəm, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.51 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |

| | |
|---|---|
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 40-cı məsələsi "İcra haqqında" Qanunda dəyişiklik edilməsi barədədir. Buyursun Əli Hüseynli.

**Ə.Hüseynli.** Oqtay müəllim, bu məsələ, əslində, əvvəlki iki məsələnin davamıdır və çox mütərəqqi bir düzəlişdir. İcra sənədlərinin aidiyyəti üzrə göndərilməsi zamanı məlumat verilməsi öhdəliyi qoyulur və ən başlıcası da icra hərəkətlərinin həyata keçirilməsinin iki ay müddəti ilə məhdudlaşdırılması və uzadıla bilinməməsi təklif olunur. Yəni konkret bir müddət müəyyənləşdirilir və artıq diskrision səlahiyyətlər məhdudlaşdırılır, icra orqanları başqa cür hərəkət edə bilməz. Səs verilməsini xahiş edirəm.

**Sədrlik edən.** Başqa təklif yoxdursa, xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.52 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

11-ci məsələ "Tibbi sığorta haqqında" Qanunda dəyişiklik edilməsi barədədir. Buyursun Əhliman Əmiraslanov.

**Ə.Əmiraslanov,** *Milli Məclisin Səhiyyə komitəsinin sədri.*

Çox hörmətli Oqtay müəllim, hörmətli millət vəkilləri, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev icbari tibbi sığortanın 2020-ci ildə bütün ölkə ərazisində

tam tətbiq olunması üçün hazırlıq işlərini sürətləndirmək, səhiyyənin mövcud maliyyələşmə mexanizmlərinin təkmilləşdirilməsi yolu ilə əhaliyə göstərilən tibbi xidmətlərin səviyyəsinin artırılmasına nail olmaq, tibbi xidmətin keyfiyyətini yüksəltmək, əhalinin sağlamlığının etibarlı olmasını təmin etmək məqsədi ilə "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsinin (TƏBİB) yaradılması ilə bağlı fərman imzalamışdır. İcbari tibbi sığortanın bütün ölkə ərazisində tam tətbiq edilməsi üçün mükəmməl hüquqi bazanın yaradılmasına ehtiyac vardır.

"Tibbi sığorta haqqında" mövcud Qanun 1999-cu ildə qəbul edilmişdir və bir çox aspektlərdə bugünkü tələblərə cavab vermir. Cənab Prezidentin qanunvericilik təşəbbüsü ilə Milli Məclisin müzakirəsinə təqdim etdiyi "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa əlavə və dəyişikliklər də bu zərurətdən irəli gəlir. Yeni qanun layihəsində təklif olunan dəyişikliklər çoxsaylı və geniş həcmlidir. Üslubi redaktə, texniki xarakterli dəyişikliklərlə yanaşı, layihədə bir çox yeni müddəalar öz əksini tapmış, 4 maddə qanundan çıxarılmış, layihəyə 34 yeni maddəni əhatə edən 5 yeni fəsil əlavə olunmuşdur. Bütövlükdə əlavə və dəyişikliklərin sayı 100-dən artıqdır. İndi isə diqqətinizi dəyişikliklərin bəzi mühüm məqamlarına cəlb etmək istərdim. Qanunda istifadə olunan 14 əsas anlayışın geniş izahı verilmişdir. Layihənin daha bir uğurlu tərəfi odur ki, könüllü və icbari tibbi sığorta formalarının fərqləndirilməsi ayrı-ayrı fəsil və maddələrdə aydın öz əksini tapmışdır.

Layihənin II, III, IV fəsilləri könüllü tibbi sığorta münasibətlərini tənzimləyir. Layihədə təklif edilən IV–I fəsil icbari tibbi sığorta sisteminin prinsip və qaydalarını müəyyən edir. Bu fəsildə icbari tibbi sığortanın baza və

əlavə hissəsinə münasibətdə sığorta olunanların kateqoriyaları müəyyən edilir. Belə ki, Azərbaycanda yaşayan bütün şəxslər icbari tibbi sığortanın baza hissəsinə uyğun ilkin və təxirəsalınmaz tibbi yardım almaq hüququna malikdirlər. İcbari tibbi sığortanın əlavə hissəsinə münasibətdə uşaqlar, tələbələr, əlillər, pensiyaçılar, dövlət ünvanlı sosial yardım alan ailələrin üzvləri, hamilə qadınlar, qismən ödənişli məzuniyyətdə olan qadınlar, dövlət büdcəsi hesabına muzdlu əməklə məşğul olan şəxslər işəgötürənin və özünün vəsaiti hesabına, sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər, mülki hüquqi müqavilə əsasında işləyənlər isə öz hesabına sığorta ediləcəklər.

Layihənin yeni IV–II fəsli icbari tibbi sığorta iştirakçılarının hüquq və vəzifələrini müəyyən edir.

Layihənin IV–III fəsli "İcbari tibbi sığortanın maliyyə təminatı" adlanır. Bu fəsildə icbari tibbi sığortanın maliyyə mənbələri, sığorta haqqının məbləği, hesablanma və ödənilmə qaydası öz əksini tapmışdır. IV–III fəsildə çoxdan müzakirə edilən bir çox suallara cavab verilmişdir. Belə ki, xidmətlər zərfinin baza hissəsinin sığorta məbləği təqvim ili üçün adambaşına 29 manat müəyyən edilmişdir. Bu vəsait dövlət büdcəsi hesabına ödəniləcəkdir. Xidmətlər zərfinin əlavə hissəsi üçün muzdlu əmək ilə məşğul olan şəxslər üzrə əmək haqqının 4 faizi miqdarında sığorta haqqı nəzərdə tutulur ki, bu, işəgötürən və işçi tərəfindən hərəyə 2 faiz olmaqla ödəniləcəkdir. Digər kateqoriyadan olan şəxslər isə təqvim ili ərzində 120 manat sığorta haqqı ödəməklə il ərzində tam həcmdə tibbi yardım almaq hüququ əldə edəcəklər.

Layihənin IV–III fəslində icbari tibbi sığortanın təşkili, tibbi xidmətlərin göstərilməsi, tibbi sığorta müqaviləsi, sığortanın limiti, sığorta ödənişi, tibbi xidmət zərfinin

strukturu, uçot, nəzarət, hesabatın təşkilinin qayda və prinsipləri öz əksini tapmışdır.

Layihənin IV–V fəsli icbari tibbi sığorta üzrə göstərilən tibbi xidmətlərə nəzarətin həyata keçirilməsi ilə bağlı müddəaları özündə birləşdirir. Bu fəsildə tibbi xidmətlərin həcmi, keyfiyyəti, müddətinə nəzarət, elektron məlumat bazası, göndəriş sistemi, xidmətlərin göstərilməsində növbəlilik həcmi, sənədlərin saxlanılması qaydası və müddətləri, dövlət proqramları ilə maliyyələşən tibbi xidmət növlərinə münasibət, qanunun pozulmasına görə məsuliyyət və cərimələr öz əksini tapmışdır.

Hörmətli həmkarlar, qarşıdan gələn 2019-cu il bütün ölkə ərazisində icbari sığortaya keçidin həlledici yekun ili olacaqdır. İcbari tibbi sığortanın maliyyə və təşkilati-hüquqi əsaslarının yaradılması sistemin kadr təminatı, tibb müəssisələrinin attestasiyası, ilkin tibbi xidmət göstərən ailə həkimi institutunun yaranması, icbari tibbi sığorta fondunun formalaşması və sair iqtisadi, hüquqi, təşkilati münasibətlərin tənzimlənməsi üçün geniş hüquqi baza yaradacaq. Mövcud qanuna əlavə və dəyişikliklərin ləngimədən qəbul olunması çox əhəmiyyətlidir. Onu da qeyd edim ki, qanun layihəsi Milli Məclisə daxil olan gündən layihə ilə bağlı intensiv iş aparılmışdır. Milli Məclisin Sosial qanunvericilik şöbəsi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin rəhbər işçiləri, Səhiyyə komitəsinin üzvləri və ekspertlərdən ibarət işçi qrupu layihənin geniş müzakirəsini keçirmişlər.

Qanun layihəsi 2018-ci il dekabrın 20-də Milli Məclisin Səhiyyə və İqtisadi siyasət, sənaye və sahibkarlıq komitələrinin birgə iclasında müzakirə olunmuşdur. Aparılan müzakirələrdə qanun layihəsinin subyekti ilə razılaşdırmaqla aşağıdakı dəyişikliklər təklif edilmişdir: layihənin bütün mətnində “Tibb təchizatı” anlayışının “tibb müəs-

sisəsi” ifadəsi ilə əvəz edilməsi, 15.21-ci maddədə 1 faizin 2 faizlə, “yerli bazarda” ifadəsinin isə “yerli maliyyə bazarında” ifadəsi ilə əvəz olunması təklif edilmişdir. Qanun layihəsində təklif edilən hər üç dəyişiklik layihə müəllifləri ilə razılaşdırılmışdır.

Hörmətli millət vəkilləri, diqqətinizə çatdırılan dəyişiklikləri də nəzərə almaqla qanun layihəsinə səs verməyinizi xahiş edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Bunlar, həqiqətən, çoxdan gözlədiyimiz dəyişikliklərdir, səsə qoyacağıq. Xahiş edirəm, çıxışları dəyişikliklər ətrafında edin, yəni biz “Tibbi sığorta haqqında” qanun layihəsini deyil, ona olan dəyişiklikləri müzakirə edirik. Nəzərə çatdırım ki, bu gün bizim iclasda İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin direktoru Zaur Əliyev də iştirak edir. Bəzi deputatlarımız komitədə onunla görüşüblər. Mən də görüşdə olan məsələlər haqqında çox yüksək fikirdəyəm. Onların çox gözəl fikirləri var, pilot layihələr həyata keçiriblər. Lazım olsa, onlar haqqında da məlumatlar verə bilər. Keçək müzakirələrə. Buyursun Vahid Əhmədov.

**V.Əhmədov.** Çox sağ olun, hörmətli cənab Sədr. Əhliman müəllim burada qeyd etdi ki, bir-iki komitənin – İqtisadi siyasət komitəsinin və Səhiyyə komitəsinin birgə iclasında geniş müzakirə aparmışıq, o cümlədən pilot layihələrlə də əlaqədar üzə çıxan müəyyən məsələləri müzakirə etmişik. Biz bu qanun layihəsinin həyata keçirilməsini çoxdan gözləyirik. Mənə elə gəlir ki, 2019-cu il bu qanun layihəsinin həyata keçirilməsi üçün başlanğıc ili olacaq. Amma 2020-ci ildə Azərbaycanda əhali yəqin tam sığorta olunacaq, yəni icbari sığorta həyata keçiriləcək. Ona görə mən belə hesab edirəm ki, komitələrin iclasında geniş müzakirə olunduğu üçün əlavə müzakirəyə ehtiyac yoxdur.

Xahiş edirəm, səsə qoyaq, qəbul edək. Çünki bu, əhali üçün çox lazım olan məsələdir. Onsuz da qanunlar işləyəndə biz buna müəyyən dəyişikliklər edəcəyik. Sağ olun.

**Sədrlik edən.** Yazılan həmkarlardan təkid edən var?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Xahiş edirəm, sual verin. Elmira Axundova.

**E.Axundova.** Bizim vəzifəmiz danışmaqdır, təklif verməkdir. Mən də tərifləyirəm. Bu, maraqlı qanun layihəsidir, çox əhəmiyyət kəsb edir və tibb sahəsində tibbi sığorta ilə bağlı yeni fəlsəfəni müəyyən edir. Ümid etmək olar ki, biz bu Qanunu qəbul edəndən sonra tibbi sığorta prosesi daha sürətli, daha düşünülmüş şəkildə gedəcək. Amma mənə elə gəlir, bu təklif ondandır ki, bu dəyişikliklər dəyişiklik anlayışına sığmır. Təklif olunan dəyişikliklər yeni bir qanun tələb edir. Ələlxüsus ona görə ki, biz ilkin qanunu 20 il əvvəl – 1999-cu ildə qəbul etmişik və onun yeni bir variantının işlənməsinə ehtiyac vardır. Ona görə təklif edərdim ki, bu, təzə qanuna çevrilsin.

Zaur müəllimə, ya Əhliman müəllimə bir sualım var, camaat maraqlanır. Sığorta olunan vətəndaş 2 cür sığorta olunacaq: könüllü tibbi sığorta və icbari tibbi sığorta. Vətəndaşlar, eyni zamanda, 2 cür sığorta təşkilatının üzvü ola bilər, ya yox? Yoxsa ancaq bir sığorta təşkilatında təmsil oluna bilərlər? Çox sağ olun.

**Sədrlik edən.** Birinci, yeni qanun layihəsi haqqında mən də öz fikrimi bildirim. Yeni qanun layihəsini qəbul etmək çox uzun müddət tələb edə bilərdi. Ona görə məsələləri sürətləndirmək məqsədi ilə 2019-cu ildə hazırlıq işləri görmək üçün nəzərə alındı ki, dəyişiklik olsun. Bu, birinci məsələ.

İkinci məsələ, Əhliman müəllim, ya Zaur müəllim, kim cavab vermək istəyir? Mən istəyirəm, bizim millət

vəkilləri Zaur müəllimi tanısınlar. Buyurun, Zaur müəllim.

**Z.Əliyev,** *Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin direktoru.*

Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri! Əvvəla, bu qanun layihəsinə belə diqqət yetirdiyinizə görə minnətdarlığımı bildirmək istərdim. Həqiqətən də, bu bizim xalqımız üçün çox vacib bir məsələdir. Elmira xanımın sualı ilə bağlı qeyd etmək istərdim ki, hazırda Azərbaycanda könüllü tibbi sığortanın geniş fəaliyyəti var və bunu könüllü sığorta şirkətləri, yəni özəl sığorta şirkətləri həyata keçirir. İcbari tibbi sığorta bütün ölkə üzrə tətbiq olunanda, adından da göründüyü kimi, bu, icbari olacaq. İcbaridə 2 hissə var – zərflər xidmətinin baza hissəsi və əlavə hissəsi. Baza hissəsi odur ki, dövlət bütün əhaliyə həmin o baza hissəsini təminat kimi verəcək. Əlavə hissəsi isə – artıq müəyyən kateqoriyalı insanlar, Əhliman müəllimin də qeyd etdiyi kimi, dövlət tərəfindən maliyyələşəcək. Müəyyən kateqoriyalı insanlar isə işəgötürən, işçi, yaxud fiziki şəxsdirsə, özü maliyyələşdirəcək. Hər hansı bir xidmət xidmətlər zərfinə daxil deyilsə, vətəndaşlar könüllü sığorta olunaraq, buna əlavə olaraq, yəni bunu özəl sığorta şirkətlərindən alaraq yararlana bilərlər.

**Sədrlik edən.** Sağ olun. Bir neçə pilot layihələr həyata keçirildi, mən istəyirəm, qısaca nəticələr haqqında deyəsiniz ki, aydınlıq olsun. 2020-ci ildən sonra nələr olacaq? Xahiş edirəm, Zaur müəllimə bir də mikrofon verin.

**Z.Əliyev.** Hörmətli cənab Sədr, bildiyiniz kimi, artıq Azərbaycanın 3 rayonunda pilot layihələr həyata keçirilir. Bunlar Mingəçevir, Yevlax və Ağdaş rayonlarıdır. Biz onları artıq ikinci ilin sonunda yekunlaşdırırıq. Nəticələr barəsində qeyd etmək istərdim ki, əsas məqsədimiz əhaliyə əlçatanlığı

təmin etmək və xəstəxanaların maliyyələşmə mexanizmini dəyişməkdir. Yəni bildiyiniz kimi, əvvəl xəstəxanalar onların çarpayı fonduna, həkim sayına görə maliyyələşirdi. Lakin bu pilot dövründə biz maliyyələşməni tamamilə dəyişərək artıq onların göstərdiyi xidmətlərə görə həyata keçirdik. Bununla xəstəxanalar bazar iqtisadiyyatına daha da uyğun olaraq özlərini dəyişməyə doğru yönəldilər və beləcə, çalışdılar ki, daha çox xidmət göstərsinlər, əhaliyə daha əlçatan olsunlar ki, vəsait də daha çox daxil olsun.

Biz, eyni zamanda, pilot ərazilərdə həkimlərin və tibb işçilərinin əmək haqlarında da dəyişikliklər etdik. Pilot layihə olduğuna görə onların baza əmək haqlarının üzərinə göstərdikləri xidmətlərə, fəaliyyət nəticələrinə görə müvəqqəti müəyyən bonuslar hesablandı, əmək haqlarında kifayət qədər yüksəlişlər oldu. Qeyd etmək istərdim ki, hazırda bizim pilot layihədə elə həkimlərimiz var ki, 5 minin, 6 minin üzərində əmək haqqı alırlar. Bu da bütün vergilər və pensiya fonduna vergi çıxıldıqdan sonra qalan məbləğdir. Digər orta tibb işçilərinin də əmək haqlarında kifayət qədər yüksəliş olmuşdur. Tibbi göstərişlərə gəldikdə, göstərilən xidmətlərin, təkcə əməliyyatların sayı 52 faizdən çox artmışdır. Xəstəxanada çarpayıdolma sayı kifayət qədər artıb.

Bizim üçün vacib məsələlərdən biri də o idi ki, həmin regionlarda hansı xidmətlər göstərilə bilmirsə, vətəndaşları müqavilə əsasında digər xəstəxanalara yönləndirdik. Onlar, əsasən, Bakı və Gəncə şəhərlərinə göndərilirdilər. Orada da müraciətlərin sayı daha çox ürək əməliyyatları ilə bağlı idi. Bildiyiniz kimi, Azərbaycanda ən çox ölüm səbəbi ürək əməliyyatları ilə, ürək-damar sistemi ilə bağlıdır. Bizə də bununla bağlı müraciətlər çox olmuşdu. Beləcə, biz 1 ildə 900-dən çox həmin xidmətləri göstərdik. Hətta bir statistikanı qeyd edərdim ki, indi tam dəqiq ya-

dımda deyil, bizim pilot layihə dövründə həmin regionlarda ölüm sayı azalıb.

Xəstəxanada bütün sistemləri – qeydiyyat sistemindən tutmuş digər məsələlərə qədər avtomatlaşdırmağa çalışmışıq. Ona görə də vətəndaşlarımız xidmətlərdən rahat şəkildə istifadə edirlər. Biz də çalışırıq ki, hazırda daha çox keyfiyyətə fikir verək. Birinci ildə daha çox kəmiyyətə fikir verdik, amma bu ildən keyfiyyətə daha çox üstünlük veririk.

**Sədrlik edən.** Çox sağ olun, Zaur müəllim. Sizə müvəffəqiyyət!

İndi xahiş edirəm, 41-ci məsələyə – "Tibbi sığorta haqqında" Qanunda dəyişikliyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.10 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Hörmətli millət vəkilləri, 42-ci və 43-cü məsələlər "İcbari sığortalar haqqında" və "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" qanunlarda dəyişikliklərdir. Buyursun Ziyad Səmədzadə.

**Z.Səmədzadə.** Hörmətli Oqtay müəllim, bu Qanunda olan dəyişikliklər bilavasitə tibbi sığorta ilə əlaqədardır. Burada yeni bir dəyişiklik yoxdur. Ona görə də millət vəkillərindən bu qanun layihəsinə də səs vermələrini xahiş edərdim.

"İcbari sığortalar haqqında" Azərbaycan Respublikası-

nın Qanununda edilən dəyişiklik barəsində qanun layihəsinin 15-9-cu maddəsi icbari tibbi sığortanın maliyyə mənbələrini müəyyən edir. Həmin maddəyə əsasən avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə ödənilən təqvim haqqının 50 faizi icbari tibbi sığortaya yönəldiləcəkdir. Ona görə də millət vəkillərindən bu qanun layihəsinə səs vermələrini xahiş edirəm.

Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri, "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Qanunda dəyişikliklər aşağıdakını nəzərdə tutur:

Bu Qanunun 14.2-ci maddəsinə uyğun olaraq sığortalı tərəfindən sığortaçıya icbari sığorta müqaviləsinə uyğun olaraq ödənilən sığorta haqqının 5 faizi "Tibbi sığorta haqqında" Azərbaycan Respublikası Qanununa əsasən yaradılan icbari tibbi sığorta fonduna ödənilir. Ona görə millət vəkillərindən bu qanun layihəsinə də səs verməlƏrini xahiş edərdim.

*Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini* ***Bahar Muradova*** *sədrlik edir*

**Sədrlik edən.** Təşəkkür edirik, Ziyad müəllim. 42-ci məsələni – İcbari sığortalar haqqında qanun layihəsini səsə qoyuram. Münasibətinizi bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.13 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

*Azərbaycan Respublikası  Milli Məclisinin Sədri*
***Oqtay Əsədov** sədrlik edir*

**Sədrlik edən.** Çox sağ olun, qəbul edildi.
Xahiş edirəm, 43-cü məsələyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.13 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

44-cü məsələ "Sığorta fəaliyyəti haqqında", "Qiymətli kağızlar bazarı haqqında", "Banklar haqqında", "Pasportlar haqqında" və bəzi digər qanunlarda dəyişikliklər edilməsi barədədir. Buyursun Ziyad Səmədzadə.

**Z.Səmədzadə.** Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri! Qanun layihəsi "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə cənab Prezidentin imzaladığı 2018-ci il 12 iyun tarixli Qanunun icrası ilə əlaqədar hazırlanmışdır. Ona görə millət vəkillərindən bu qanun layihəsinə də səs vermələrini xahiş edərdim.

**Sədrlik edən.** Başqa təklif yoxdursa, xahiş edirəm, 44-cü məsələyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.15 dəq.) |
|---|---|
| Lehinə | 106 |

| | |
|---|---|
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs verlmədi | 0 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

45-ci məsələ "Müflisləşmə və iflas haqqında" Qanunda dəyişiklik edilməsi barədədir. Ziyad müəllim, buyurun.

**Z.Səmədzadə.** Qanun layihəsindəki dəyişiklik Azərbaycan Respublikasının Mülki Məcəlləsinin tələblərinə uyğun olaraq hazırlanmışdır. Mülki Məcəlləyə əsasən girov və ipoteka hüququna eyni hüquqi rejim tətbiq edilir. Belə ki, girov daşınar əşyalara, ipoteka isə daşınmaz əşyalara, habelə rəsmi reyestrdə qeydə alınmalı olan daşınar əşyalara  əşya hüquqlarının məhdudlaşdırılmasıdır.

41.1-ci maddəyə təklif olunan dəyişiklik isə sağlamlaşdırma planının tətbiqi dövründə kreditorlar qrupu daxilində səsvermə zamanı bütün kreditorların bərabər hüquqa malik olmasını nəzərdə tutur. Ona görə də millət vəkillərindən bu qısa dəyişikliklərə də səs vermələrini xahiş edərdim.

**Sədrlik edən.** Xahiş edirəm, gündəliyin 45-ci məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.16 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 110 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

46, 47, 48, 49, 50-ci məsələlər bir zərfdə daxil olub. 46-cı məsələ –"İnzibati icraat haqqında" Qanunla bağlı buyursun Əli müəllim.

**Ə.Hüseynli.** Çox sağ olun, cənab Sədr. Oqtay müəllim, bu məsələlər də "Doing Business 2019" hesabatının tövsiyələrindən irəli gəlir. 46, 47, 48, 49 və 50-ci məsələlərdə – Mülki Məcəllədə, Mülki Prosessual Məcəllədə, Əmək Məcəlləsində, xüsusilə də "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Qanunda elektron informasiya ehtiyatlarından istifadə, onların sadələşdirilməsi, səhmdara məlumatları hər hansı bir konkret səbəb göstərmədən məhkəmə qaydasında ala bilməsi imkanı verilməsi məsələləri tövsiyə olunur. Qeyd etməliyəm ki, təklif olunan bu dəyişikliklər məhz səhmdarların maraqlarının qorunmasına yönəlib. Bilirsiniz ki, "Doing Business" hesabatında Azərbaycandakı investisiya mühiti nə dərəcədə əks olunur. Bu baxımdan səhmdarların maraqlarının qorunması məsələsi həm Mülki, həm də Mülki Prosessual Məcəllədə öz əksini tapır. Hesab edirəm ki, bu qəbildən olan layihələr ölkəmizin beynəlxalq iqtisadi reytinqi üçün əhəmiyyətlidir və səs verilməsini xahiş edirəm.

**Sədrlik edən.** Əgər başqa fikir yoxdursa, xahiş edirəm, 46-cı məsələyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.18 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.
47-ci məsələyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.19 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.
48-ci məsələyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.19 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.
49-cu məsələyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.20 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.
Xahiş edirəm, 50-ci məsələyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.20 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

**Sədrlik edən.** Çox sağ olun, qəbul edildi.

Bugünkü son qanun layihəsi – 51-ci məsələ Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi barədədir. Buyursun Əli Hüseynli.

**Ə.Hüseynli.** Çox sağ olun, cənab Sədr. Bu layihə də "Doing Business" hesabatının tövsiyələrindən irəli gəlir. Təklif olunur ki, tikintiyə icazə verilməsi tikinti işlərinin başlanması üçün tam kifayət edir.

İkinci mühüm dəyişiklik ondan ibarətdir ki, Məcəllənin mövcud redaksiyasında hər iki halda həm tikintiyə icazənin, həm də xüsusi nişanın olması vacibdir. Bundan başqa, tikintiyə icazə verilməsi müddətləri də qısaldılır. Belə ki, əgər tikinti obyektinin xüsusi ekspertizadan keçməsi vacib deyilsə, əvvəlki halda ümumi müddət 20 gün idi. Amma indi əgər ekspertiza keçirmək tələb olunmursa, o zaman həmin müddət 20 gündən 10 günə endirilmiş olur. Tikinti sahəsində çox mütərəqqi bir dəyişiklikdir. Səs verilməsini xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Xahiş edirəm, gündəliyin 51-ci məsələsinə də münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.22 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Hörmətli millət vəkilləri, bildiyiniz kimi, qarşıdan Dünya azərbaycanlılarının həmrəyliyi günü gəlir. İcazə verin, Milli Məclis tərəfindən hazırlanmış Müraciəti, xahiş edək, Bahar Muradova sizə təqdim eləsin.

**B.Muradova,** *Milli Məclis Sədrinin müavini, İnsan hüquqları komitəsinin sədri.*

Dünya azərbaycanlılarının həmrəyliyi günü münasibəti ilə Azərbaycan Respublikası Milli Məclisinin Müraciəti

Əziz soydaşlar, dəyərli həmvətənlər! Tarixin gedişi və taleyin hökmü ilə dünyanın dörd bir yanına səpələnmiş Azərbaycan xalqının övladlarını öz milli varlığı, ölkəsinin və soydaşlarının taleyi haqqında düşünməyə səsləyən Dünya azərbaycanlılarının həmrəyliyi günü ərəfəsində hər birinizi səmimi qəlbdən salamlayırıq.

Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 28 il öncə milli-mənəvi bütövləşmə hərəkatının başlanğıcının qoyulması yeni dövrün salnaməsinin ən mühüm siyasi hadisələrindən biri olmuşdur. Dövlət müstəqilliyimizlə yaşıd olan bu hərəkat sonrakı dövrdə geniş vüsət almış, dünya azərbaycanlıları ilə əlaqələrin gücləndirilməsi dövlət siyasətinin ayrılmaz tərkib hissəsinə çevrilmişdir.

Azərbaycan xalqı qədim və zəngin dövlətçilik ənənələri ilə haqlı olaraq fəxr edir. Tarix boyu xalqımızın yaradı-

cılıq enerjisinin və zəkasının gücü ilə qurulmuş qüdrətli dövlətlər dünya sivilizasiyasının inkişafına dəyərli töhfələr vermişlər.

XX yüzilliyin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyətinin yaranması xalqımızın dövlətçilik potensialının yeni şəraitdə təzahür etməsi və qəlbində yaşatdığı müstəqillik arzusunun gerçəkləşməsi idi. 100 illiyini qeyd etdiyimiz ilk müstəqil dövlətimiz təkcə Azərbaycanın deyil, bütün müsəlman Şərqinin siyasi inkişafında ayrıca bir mərhələ təşkil etmişdir.

XX əsrin sonlarında yenidən dövlət müstəqilliyinə qovuşan Azərbaycan Respublikası tarix baxımından qısa müddətdə qərinələrə bərabər yol keçmişdir. Bu yolun əsas göstəriciləri ümummilli liderimiz Heydər Əliyevin xidmətləri sayəsində siyasi və dövlət müstəqilliyimizin qorunub saxlanılması və möhkəmləndirilməsi, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunun həyata keçirilməsi, vətəndaş cəmiyyəti elementlərinin, bazar iqtisadiyyatı prinsiplərinin bərqərar edilməsi, qanunun aliliyinin, insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin olunması kimi səciyyələndirilə bilər.

Ulu öndərin müəyyənləşdirdiyi sosial-iqtisadi inkişaf strategiyası Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən ardıcıl surətdə davam etdirilməkdədir. Azərbaycan Respublikası bu gün Cənubi Qafqaz bölgəsinin lider dövlətinə və dünya azərbaycanlılarının qürur yerinə çevrilmişdir.

Azərbaycançılıq amalının şüurlarımızda və qəlblərimizdə möhkəm yer tutmasına yönələn düşünülmüş tədbirlər həyata keçirilir, xarici ölkələrdəki Azərbaycan icmaları ilə əlaqələr gücləndirilir. Müstəqilliyin bərpasından öncə dünyanın müxtəlif bölgələrində bir-birindən çətinliklə xəbər

tutan soydaşlarımız arasında bu gün möhkəm bağlar yaranmışdır. Bütün bunlar həm sayına, həm də intellektual potensialına görə dünyanın böyük millətləri ilə bir sırada dayanan xalqımızın mütəşəkkil qüvvə kimi formalaşmasına, tarix səhnəsində ənənəvi mühüm rolunu bərpa etməsinə yol açır.

Azərbaycan Respublikası bütün azərbaycanlıların ata-baba yurdu olduğuna görə dünyanın müxtəlif qitələrində yaşayan soydaşlarımızın övladlıq borcu Vətənimizin taleyüklü problemlərinin həllinə kömək göstərməkdir. Qarabağ dərdi hamımızın ağrılı yeridir. Bütün dünya azərbaycanlıları səylərini artırsalar, bu problemin həllini daha da yaxınlaşdıra bilərlər.

Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, xalqımızın zəngin mədəniyyətinin təbliğ edilməsi sahəsində də görüləsi işlərimiz çoxdur. Soydaşlarımızın bir vəzifəsi də yaşadıqları ölkələrin ictimai-siyasi həyatına inteqrasiya etməklə bərabər, dilimizi, adət-ənənələrimizi uca tutmaq, milli hüquqlarımızı qorumaqdır.

Əziz soydaşlarımız, dəyərli həmvətənlərimiz!

Sizi ümummilli məqsədlərimizin gerçəkləşməsi, xalqımızın mənafelərinin qorunması naminə birliyə çağırırıq. Dünya azərbaycanlılarının həmrəyliyi günü münasibəti ilə hamınızı ürəkdən təbrik edir, hər birinizə möhkəm can sağlığı, ailə səadəti, doğma Azərbaycanımıza isə işıqlı gələcək arzulayırıq!

Hörmətlə, Azərbaycan Respublikasının Milli Məclisi.

*(Alqışlar.)*

**Sədrlik edən.** Çox sağ olun, hörmətli millət vəkilləri. Bizim bu Müraciətimizi təsdiqləmək lazımdır. Xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.28 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 112 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Hörmətli millət vəkilləri, bugünkü iclasımızın gündəliyini başa çatdırdıq. Bu, eləcə də Milli Məclisin payız sessiyasının sonuncu iclasıdır. Biz, eyni zamanda, ilin son sessiyasını da başa çatdırırıq. Görülmüş işlərə qısaca nəzər salsaq, inamla söyləmək olar ki, bu bir ildə parlament səmərəli fəaliyyət göstərmişdir. 31 iclas keçirilmiş, 463 qanun qəbul edilmişdir. Yəni Konstitusiya ilə nəzərdə tutulan qanunvericilik səlahiyyətləri tam həcmdə yerinə yetirilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən quruculuq işlərini parlament səviyyəsində dəstəkləmək üçün lazımi tədbirlər görülmüşdür.

Bu il Milli Məclisin beynəlxalq əlaqələrinin intensivliyi baxımından çox məhsuldar bir dövr olmuşdur. Nümayəndə heyətlərimiz beynəlxalq təşkilatların fəaliyyətində yaxından və çox yüksək səviyyədə iştirak eləmişlər. İl ərzində 45 ölkəyə 135-dən çox səfər həyata keçirilmişdir. Millət vəkillərimiz Türkiyədə keçirilən prezident və parlament seçkilərində, Rusiyada, Gürcüstanda və Monteneqroda keçirilən prezident seçkilərində, eləcə də Latviyada keçirilən parlament seçkilərində fəal iştirak etmişlər.

Bu il 85 xarici dövlətin və 27 beynəlxalq təşkilatın 160-dan çox nümayəndə heyəti, ümumiyyətlə desək, 2

min 50 nəfər deputat və əcnəbi vətəndaş Milli Məclisə gəlib, Azərbaycan parlamenti ilə tanış olub, Azərbaycan haqqında fikirlər yaradıb getmişlər. Beynəlxalq təşkilatların xətti ilə 9 tədbir keçirilmişdir.

Əlbəttə, ən möhtəşəm tədbirimiz Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyinə həsr olunmuş tədbir idi. Bu tədbirdə dünyanın 44 ölkəsindən nümayəndələr iştirak edirdi. Siz hamınız bu tədbirin iştirakçısı oldunuz və bunun nə qədər yüksək səviyyədə həyata keçirildiyini gördünüz. Eləcə də bu yaxınlarda Azərbaycanda Parlamentlərarası İttifaqın Gənc Parlament üzvlərinin 5-ci Qlobal Konfransını keçirdik. Çox maraqlıdır ki, bu iclasda da dünyanın 44 ölkəsinin 180 nəfər nümayəndəsi iştirak elədi. Həmin iclas bizim plenar zalımızda keçdi. Gələcəkdə öz ölkələrində aparıcı qüvvələr olacaq bu gənclər Azərbaycan haqqında çox yüksək təəssüratla qayıtdılar və bir daha Azərbaycana gəlmək istədiklərini vurğuladılar.

Mən hesab edirəm ki, biz 2018-ci ildə Milli Məclisin iclaslarını çox uğurla başa vurduq və bu münasibətlə sizin hamınızı təbrik edirəm.

Qarşıda bayramlarımız var – Dünya azərbaycanlılarının həmrəyliyi günü və Yeni il. Bu münasibətlə, – Bahar xanım da dedi, – mən də sizin hamınızı təbrik edirəm. İcazə versəniz, cənab Prezidentə Milli Məclis adından bir təbrik məktubu hazırlayarıq. Onu təbrik edərik. *(Alqışlar.)*

Mən hesab edirəm ki, bu alqışlar bizim təbrik məktubunu dəstəkləyən alqışlardır.

İndi də hörmətli millət vəkilləri, mən sizi bir daha qarşıdan gələn Yeni il bayramı münasibəti ilə ürəkdən təbrik edirəm, hər birinizə can sağlığı, ailə xoşbəxtliyi və gələcək işlərinizdə müvəffəqiyyətlər arzulayıram!

İndi isə Milli Məclisin payız sessiyasını bağlı elan edirəm. Çox sağ olun.